*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.473-479*

https://doi.org/10.62837/2025.5.473

**ZƏMİNƏ ZEYNALOVA**
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

# HÖKUMƏ BİLLURİNİN YARADICILIĞINDA VƏTƏN VƏ ANA OBRAZI

**Açar sözlər**: Cənubi Azərbaycan, Hökumə Billuri, poeziya, ana obrazı
**Ключевые слова:** Южный Азербайджан, Хокума Биллури, поэзия, образ матери
**Keywords**: South Azerbaijan, Okume Billuri, poetry, image of mother

Müasir Cənubi Azərbaycan poeziyasının inkişafında özünəməxsus xidmətləri olan şairlərdən biri də Hökumə Billuridir. O, həyatının uşaqlıq və gənclik illərini dağların, sıx meşələrin əhatəsində yerləşən Zəncanda keçirmişdir. Buranın füsünkar mənzərəsi gələcək şairin ilham mənbəyinə çevrilmişdir. Hökumə Billuri hələ kiçik yaşlarından ətrafındakı insanların acınacaqlı həyatını, cəmiyyətdəki ədalətsizlikləri müşahidə etmiş, bütün bunlar qəlbində şah üsuli-idarəsinə, haqsızlığa qarşı etiraz və hiddət yaranmasına səbəb olmuşdur. Onun yaradıcılığında vətəpərvərlik mövzusu ilə yanaşı qadın – ana mövzusu da xüsusi yer tutur.

Hökumə Billuri ilk təhsilini Zəncanda “Azəri” qız orta məktəbində almış, burada İran tarixi, fars dili və ədəbiyyatını öyrənmiş, Firdovsi, Sədi, Hafiz kimi böyük ədəbi şəxsiyyətlərin yaradıcılığı ilə tanış olmuşdur.

1941-ci ildə keçmiş sovet ordusunun İran ərazisinə daxil olması ilə Cənubi Azərbaycanın ictimai-siyasi həyatında demokratik siyasi proseslər başlamış, 1945-ci ildə Seyid Cəfər Pişəvərinin başçılığı ilə Milli Hökumət qurulmuşdur. Bundan sonra ictimai-siyasi, mədəni və iqtisadi sahələrdə köklü dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər ədəbi mühitin canlanmasına, yaradıcılığın fərqli sahələrinə yeni vətənpərvər nəslin gəlməsinə səbəb olmuşdur. Ana dilində jurnal, qəzet və kitabların nəşri ədəbiyyatın inkişafı üçün də yeni üfüqlər açmışdır.

Hökumə Billurinin ədəbi yaradıcılığa başlaması da məhz bu dövrə təsadüf edir. Belə ki, “Vətən yolunda” qəzetinin “Zəncan şairləri” səhifəsində onun ilk şeirləri çap edilmişdir. Buna nümunə olaraq qəzetin 1946-cı il tarixli 44-cü nömrəsində “Sübh açıldı, səhərə əyan oldu” şeirini göstərmək olar.

Gənc şair ətrafında baş verən taleyüklü hadisələrdən özünü kənara tutmur, həm canı, həm də qələmi ilə müzəffər bir əsgər kimi döyüşür, doğma yurdunun əldə etdiyi azadlığa sevinir, onu tərənnüm edirdi:

*Qəlbimin baş tacı, iftixarısan,*
*Babamın, atamın yadigarısan,*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 473-479*

*Şərqdə azadlığa oldun pasiban,*
*Mənim doğma yurdum, Azərbaycanım,*
*O tayım, bu tayım şöhrətim, şanım.* [1, s.6]

Milli Hökumətin süqutundan sonra şah rejiminin ölkədə yaratdığı dözülməz vəziyyətlə əlaqədar olaraq Hökumə Billuri 1946-ci ilin sonlarında Zəncanı tərk edərək Şimali Azərbaycana mühacirət etmişdir.
Gənc şair xalqının başına gətirilən müsibətləri bir sıra: "Sürgün", "Vətən", "İntiqam" , "Azərbaycan" və s. kimi şeirlərində ürək ağrısı ilə təsvir etmişdir:

*Can verdi burada Xiyabanilər.*
*Zindanlar küncündə mərd Əranilər.*
*Onlar getdilərsə əgər cahandan*
*Tarix yaradacaq onları hər an.* [3, s.31]

Şairin bu dövrdə yazdığı şeirlərdə vətən torpağının dönə-dönə qan işində boğulması, bununla belə düşmən qarşısında baş əyməyərək yenidən dirçəlməsinə ümidinin şahidi oluruq. Şair Cənubda milli azadlıq fırtınasının yenidən çoşacağına inanır.
Hökumə Billuri Şimali Azərbaycana mühacirət etdikdən sonra onun yaradıcılığında qoyub gəldiyi Cənubi Azərbaycan torpağına olan həsrət, nisgil, xalqının ağır dərdləri, Təbriz xatirələri, inqilabi mübarizə illəri ana xətt kimi keçir:

*Qollarım dolanar boynuma bir gün,*
*Yenə baş qoyaram dizinə Təbriz.*
*Həsrətdən, hicrandan cana doymuşam,*
*Doyunca baxaram gözünə, Təbriz.* [3, s.6]

Əslən Cənubi Azərbaycandan olan digər şairlər kimi Hökumə Billurinin də şeirlərinin hər sətrində, hər kəlməsində vətən həsrəti, vətən nəfəsi duyulmaqdadır, Bunlar son dərəcə kədərli və kövrəkdir. Yurd həsrəti daim onların ömür yollarının bələdçisinə çevrilir:

*Vətəndən uzaqda ömr edənlərin*
*Dərdi böyük olar, el bilir bunu*
*Vətən həsrətini dərk edənlərin*
*Gözü yolda qalar ömrü uzunu.* [1, s.119]

Hökumə Billuri eyni zamanda öz şeirlərində Azərbaycanın ikiyə bölünməsinin yaratdığı bölünmüşlük kompleksinin doğurduğu daxili qəzəbi belə ifadə edir:

*Məndən soruşsalar bu dünyada ki,*
*Nədir qövr eyləyən ürəyindəki?*
*Deyərdim: yurdumu kim bölmüş iki*
*Mən onun özünü bölərdim, inan,*
*Nələr çəkməmişdir el ayrılıqdan?* [5, s.173]

Amma Vətənin ikiyə bölünməsinə baxmayaraq Hökumə Billuri şair ömrünü bütöv Vətənin vətəndaşı kimi yaşamışdır. O, öz əsərlərində Təbrizi, Zəncanı sevdiyi kimi, Bakıya da "ana" deyir. Şair o tayın təbiətini, gözəlliklərini vəsf etməklə bərabər Xəzəri də eyni məhəbbətlə sevir.
Hökumə Billuri yaradıcılığının ən ümdə mövzularından biri də qadındır. O, qadını prinsipial olaraq "Ana" obrazında təqdim edir. Onun təxəyyülündə "Ana" dünyaya övlad gətirib onun qayğısını çəkən, ömrünü yuxusuz gecələrdə şam kimi yandırıb onun həyat yoluna işıq salan müqəddəs varlıqdır. Şair qadına məxsus bütün önəmli xüsusiyyətləri "Ana" timsalında cəmləşdirir Ona görə də onun qədrini vaxtında bilib qiymətləndirmək lazım olduğunu təlqin edır:

*Anadan cox yazmış şairlərimiz,*
*Ananın qədrini biləydin gərək.*
*Anasız ömür edib yaşayırıq biz,*
*Ey könül, anasız öləydin gərək!* [1, s.5]

Kövrək və xəfif hisslərlə döyünən ürəyə sahib olan Hökumə Billuri "Ana laylası" şeirində anaların öz körpəsinin beşiyi başında oxuduğu laylaları dünyanın ən gözəl nəğməsinə bənzədir, analıq hissini onun öz övladı ilə ilahi bağlılığının təzahürü kimi qələmə verir:

*Ən gözəl nəğmədir ana laylası,*
*Hələ qulağımda səslənir o səs.*
*Hələ nəfəsimdə o ılıq nəfəs*
*O beşik hələ də qalır yadımda,*
*Anam yırğalardı bir saat tamam,*
*Ta gəlib çıxaydı yuxulu dünyam.*

Şair "Ana"nı həm də mübariz, vətənin dar günündə qəhrəman oğul və qızarı ilə bir sırada döyüşə atılanlar cərgəsində görür:

*Qalx Ana, qalx Ana! Səni döyüşə*
*Çağıran öz qızın, öz vətənindir*
*Bax yanır odlarda Odlar diyarı,*
*Bu vətən, bu torpaq, bu el sənindir!* [s.131]

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 473-479*

Hökumə Billuri Arazın o tayında qoyub gəldiyi anasının həsrətindən ürək yanğısı ilə söhbət açır. Cənubda Milli Hökumətin devrilməsi nəticəsində yaranan siyasi təqiblər səbəbindən azadlıq hərəkatının iştirakçıları olmuş insanların bir çoxu kimi Hökumə Billuri də öz elini-obasını, əzizlərini tərk etmək məcburiyyətində qalmışdı. Həmin qanlı-qadalı günlərdə saysız-hesabsız talelər sınmış, ailələr pərən-pərən düşmüş, sayseçmə vətən fədailəri cəzalandırılıb dar ağaclarından asılmışdı.
Şair vətənini tərk etdiyi həmin həyacanlı anları, ömrünə unudulması heç vaxt mümkün olmayan qara hərflərlə yazılmış həmin günü xatırlayır:

*Təbriz kədərliydi, sən ağlayırdın,*
*Gecəydi biz səndən ayrılan zaman,*
*Pərişan görkəmin, o son sözlərin*
*Bir an xatirimdən çıxmamış, inan.* [5, s.130]

Qəlbində dərin iz buraxmış bu ayrılıq yolunun daimi yolçusuna çevrilən Hökumə xanım bu yükü ömrü boyu daşımışdır. O, doğma yurdunda qoyub gəldiyi anasını daim xəyalında canlandırır, sanki onun yanında yenidən uşaqlaşır:

*Baxdım camalına, baxdım üzünə,*
*İllərin ağrısı çıxdı canımdan.*
*Durub qulaq asdım hər bir sözünə*
*Anayçın uşaqmış hər yaşda insan.* [2, s.37]

Şair uşaqlıq illərini xatırlayır, anasının sübh tezdən, hamıdan erkən oyanıb hərəni öz dili və nəvazişlə işə, dərsə yola salmasından, ehtiyacla başa vurduğu günlərinin ağır olmasından söz açır. Həyatının hələ uşaq ikən ağır keçməsini, o dövrdə Cənubi Azərbaycanda xalqın güzəranının olduqca aşağı səviyyədə olmasını yadına salır. Balaca Hökumənin atası elə bu səbəbdən ailənin yaşayış yerini dəyişərək müxtəlif şəhər və kəndlərdə məskunlaşmalı olurdu. Bir qarın çörək ucundan insanlar diyarbadiyar gəzərək yaşamaq uğrunda mübarizə aparırdılar. Hökumə Billuri ömrünün bu səhifələrini qələmə aldığı “Günəşdən tez oyanırdı” şeirində təsvir etmişdir:

*Ehtiyacın əli buzdur*
*Üzü bozdur,*
*Qəlbi qara...*
*Yenə orada*

*Ay doğanda yatan anam*
*Öz ömrünü sədaqətlə,*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.473-479*

*Məhəbbətlə,*
*Ömrümüzə qatan anam.*

Hökumə xanım qadın obrazını dözümlü, ailədə və cəmiyyətdə xüsusi yeri olan, yeni nəsil tərbiyə edib boya-başa çatdıran, həyat yoldaşına mənəvi dayaq bir varlıq kimi qələmə verir. O, fədakar qadın obrazını daha çox öz anasının timsalında təsəvvür və təsvir edir.

Ata-baba yurdunda qalan anasının artıq qocaldığını, belinin yay kimi büküldüyünü, çöhrəsinin solduğunu eşidəndə isə çox məyus olur. Bu hisslərini aşağıdakı sətirlərdə belə ifadə edir:

*Deyirlər altmışı ötmüşdür yaşın,*
*Belin yay kimidir, görənlər deyir.*
*Alnın qırış-qırış, gül kimi çöhrən*
*Batan ay kimidir, görənlər deyir.*
*Gözlərin batacaq ulduzlar kimi,*
*Qamətin ikiyə bölünmüş çinar.* [3, s.45]

Ana adını daim uca tutan və onu tərənnüm edən Hökumə Billuri bu mövzuya öz yaradıcılığında geniş yer vermişdir. Onun "Ana", "Bayramlar bayramı", "Baş çək öz anana" "Bir cahandır analar", "Anam deyərdi", "Anaların sülh səsi", "Hardasan", "Mən səndən deyim", "İsti bir ürək", "Danışır anam", "Günəşdən tez oyanardı", "Ana laylası", "Böyük məna" adlı şeirləri bu qəbildəndir.

Hökumə Billuri Cənubi Azərbaycanda yaşayan qadınların ağır həyatını öz şeirlərində daim işıqlandırmağa, onların dərdlərinə şərik olmağa çalışırdı. O, qadın azadlığı və xoşbəxtliyi məsələsinə yüksək qiymət verir, bunu cəmiyyətin inkişafının olmazsa-olmazı hesab edirdi.. Hökumə xanımın "Danışacağam" adlı şeirində yuxarıdakı fikrinə sadiq qalmasından xəbər verir. O yazırdı:

*Bir qadın dərdi qalana qədər dünyada,*
*Danışacağam.*
*Uzaqlarda, ucqarlarda olan ana dərdinə*
*Yanıb alışacağam.*

Hökumə Billuri istər Cənubi Azərbaycanda, istərsə də Şimali Azərbaycanda yaşadığı illərdə qələmi ilə yanaşı, vətənin ictimai-siyasi həyatında müxtəlif vəzifələrdə çalışmışdır. Zəncanda açılan məktəbdə müəllimlik etməklə yanaşı, Azərbaycan Demokratik Firqənin Zəncan Vilayət komitəsinin təbliğat şöbəsinin sədr müavini, keçmiş SSRİ ilə İran arasında mədəni Əlaqələr Cəmiyyətinin Zəncan şöbəsinin sədr müavini və "Mədəniyyət evi" kitabxanasının müdiri vəzifələrində çalışmışdır.

1946-cı ildə Şimali Azərbaycana gəldikdən sonra təhsilini davam etdirərək Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, 1964-cü ildən etibarən Azərbaycan Elmlər Akademiyası Yaxın və Orta Şərq xalqları İnstitutunda çalışmış, Cənubi Azərbaycan və İran ədəbiyyatı problemləri ilə məşgul olmuşdur. Ədəbiyyatımızda göstərdiyi xidmətlərinə görə Hökumə Billuri "21 Azər" medalı, "Əməkdə igidliyə görə" medalı və "Əməkdar incəsənət xadimi" fəxri adı ilə təltif edilmiş, Macarıstan Ümumdünya Qadınlar Federasiyası konfransının nümayəndəsi, Almaniya və keçmiş Çexoslavakiyadakı konfranslarda qonaq qismində iştirak etmiş, 2 dəfə Qadınlar Qurultayının, dəfələrlə yazıçılar qurultaylarının üzvü seçilmişdir. Şair hər bir qadına nümunə ola biləcək fəaliyyəti və fəallığı ilə mənalı bir ömür yaşamışdır.

## İstifadə olunmuş ədəbiyyat

1. Billuri H. Apar məni yerlərə. Bakı: "Yazıçı", 1981.
2. Billuri H. Çinar gözləyir məni Bakı: "Azərnəşr", 1976.
3. Billuri H. Mənim arzum. Bakı: "Uşaqgəncnəşr", 1949.
4. Billuri H. Secilmiş əsərləri. Bakı: "Azərnəşr", 1986.
5. Billuri H. Seçilmiş əsərləri Bakı: 2023.
6. Əhmədov T. "H.Billuri". Cənubi Azərbaycan ədəbiyyatı antologiyası III cild, Bakı: "Elm" 1988.

## Резюме

## ОБРАЗ МАТЕРИ В ТВОРЧЕСТВЕ ХОКУМЫ БИЛЛУРИ

Одной из женщин-поэтесс, внесших особый вклад в развитие современной южноазербайджанской поэзии, является Хокума Биллури. Она провела свое детство и юность в Зенджане, регионе, окруженном горами и густыми лесами. Очаровательные пейзажи этой местности впоследствии стали источником вдохновения для поэта. С ранних лет Хокума Биллури наблюдала за скорбной жизнью окружающих ее людей и несправедливостью, существующей в обществе. Эти переживания вызвали в ее сердце сильное чувство протеста и негодования против монархического режима и несправедливости. Наряду с темой патриотизма, образ женщины, особенно матери, занимает особое место в ее творчестве. В этой статье рассматривается литературный вклад поэта с этой точки зрения.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.473-479*

**ZAMİNA ZEYNALOVA**

**Summary**

**THE IMAGE OF MOTHER IN HOKUMA BILLURI'S CREATIVE WORK**

One of the female poets who has made a distinctive contribution to the development of contemporary South Azerbaijani poetry is Hokuma Billuri. She spent her childhood and youth in Zanjan, a region surrounded by mountains and dense forests. The enchanting landscapes of this area later became a source of inspiration for the poet. From an early age, Hokuma Billuri observed the sorrowful lives of those around her and the injustices present in society. These experiences evoked a strong sense of protest and resentment in her heart against the monarchical regime and injustice. Alongside the theme of patriotism, the image of woman—particularly that of the mother—holds a special place in her creative work. This article explores the poet's literary contributions from this perspective.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent. Mahmizər Mehdibəyova**.